

2014-cü il 24-28 noyabr tarixində YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin 9-cu illik sessiyasında Azərbaycan kəlağayısı «Kəlağayı simvolizmi və ənənəvi sənəti» adı ilə YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edildi.

# Göylərin bəxşişi kəlağayı





- Uçaq?
- Uçaq!..
- Təpənin üstü ilə qaça-qaça?!
- Hə!..
- Yaxşı... Sən deyən olsun...
- Bir, iki, üç!.. Uçduq!

...Əllərində ağ, soğanı, tünd göy rəngli, moruğu yelənli kəlağayıları başlarının üstünə qaldırıb, cingiltili gülüşləri ilə baharın gözəlliyindən vəcdə gələn quşların cəh-cəhini batıran beş qızcığaz... Kəlağayılar yelkən kimi açılıb, quş kimi qanad çalır... Baharın nəfəsiylə torpaqda cücərən ətirli otların arasından boylanan zərif, alabəzək çöl çiçəkləri, dənizdən əsən ılıq gilavarın çərpələng kimi uçurduğu kəlağayıların görüntüsü yaz günü bir ayrı ovqat yaradır...

...Bu mənzərə yaddaşıma ömürlük həkk olunub. Dejavü deyilən o sirli halı yaşayıb bu mənzərəni dəfələrlə xəyalımda canlandırıram...

...O qızların ən kiçiyi mənəm... Həmin gün bağa, qohum məclisinə toplaşan bütün xanımların kəlağayısı var... Balaca uşaqlar isə "Kəlağayı ilə uçmaq" arzusuyla əl-əyaq altında dolaşır. Sanki bu uçuşla qızlar hamıdan gözəl olduqlarını bütün dünyaya bəyan etmək istəyirlər.

**Özgürlüyümüzün matritsası...**

...Hər bir xalqın, millətin yalnız ona məxsus olan dəyərləri, gen yaddaşına köçmüş xüsusiyyətləri, üstünlükləri var. Bizim bu cərgədən olan dəyərlərimizdən biri də nəsillər yadigarı kəlağayıdır... Azərbaycanın bütün etnik-coğrafi ərazisində yayılmış, bütün sosial təbəqədən olan qadınların əsrlər boyu ayrılmadığı, sevdiyi, qoruduğu zərif kəlağayı...

Kəlağayı haqda yazılan kitablarda hələ qədim dövrlərdə Şəki, Ərəş, Samux meşələrində vəhşi tırtıl qurdların ipək toxumağından bəhs edilir, bu ərazinin kümçülük, yəni ipəkçilik peşəsinin yaranmasına təkan verdiyi göstərilir. Hazırda Azərbaycan Xalçaçılıq Muzeyində saxlanan bir eksponat da bu fikri təsdiq edir. Şəkinin Qudula kəndindəki dörd min il yaşı olan kurqandan tapılan qızıl sırğanın üstündə palıd ipək qurdunun təsviri həkk olunub.

*«Soğanı» kəlağayı,*
*«Heyratı», «Ağ» – yox tayı.*
*«Şabalıdı», «Qırmızı»,*
*«Qara» – altıdır sayı.*



> Bəlkə kəlağayı bizə elə göylərin bəxşişidir? Kəlağayıya olan ipək qədər zərif məhəbbətin, ipək qədər möhkəm bağlılığın sirri də elə bundadır bəlkə?!

Həm sayıcı sözləri, həm də el şeiri nümunəsi sayılacaq bu söz düzümündə kəlağayının bütün klassik növlərinin adı çəkilir. Bu növlər rənginə görə də fərqlənir. Çalarından asılı olaraq kəlayağının yüzlərlə rəngi mövcuddur. Kəlağayının əsas naxışı butadır. Bir baş örtüyündə neçə rəngdən və ornamentdən istifadə olunmasına gəlincə, bu, artıq boyaqçı və qəlibçi ustaların məharətindən asılıdır.

Tarix boyu bütün xalqların və cəmiyyətlərin güzəranı belə olub ki, maddi imkanı yaxşı olanlar, əsilzadələr öz libasları, xarici görünüşləri ilə kasıb təbəqədən seçiliblər. Yalnız texnologiyanın inkişafı, yeni elmi kəşflərin insanın xarici görünüşünə xidmət edən sahələrə nüfuzu (məsələn, bu gün təbii mirvari ilə süni bijuteriyanı, almazı cilalamaqla alınan brilyantı laboratoriya brilyantından fərqləndirmək, təbii ipəyi viskoz qatqılı materialdan ayırmaq hər kəsin işi deyil) bu fərqi xeyli azaltdı. Təbii ki, tarix boyu Azərbaycan toplumunda da belə olub: zadəgan xanımların libası yoxsul təbəqə xanımlarının geyimindən xeyli fərqlənib. Kəlağayıdan başqa! Əsrlər boyu kəlağayı bütün sosial zümrələrdən olan Azərbaycan qadınlarının sevimli baş örtüyü sayılıb. Kəlağayı yalnız rənginə və ölçüsünə görə fərqlənib. Məsələn, yaşlı və matəm saxlayan qadınlar tünd rəngli, ya da qara rəngli kəlağayı örtüblər, cavanlar ağ, soğanı, moruğu rəngli... Gəlin üçün yığılan bazarlıq xonçasına da mütləq qırmızı kəlağayı qoyulub. Kəlağayı xələt olaraq kişilərə də bağışlanıb, əziz qonağın kəhərinin boynuna da dolanıb. Kimsə də bunu əksiklik bilməyib. Çünki ta əzəldən kəlağayı qan, gen yaddaşımızda ucalıq, analıq rəmzi hesab edilib. Ananın isə varlısı, kasıbı olmur. Dediklərimizə milli ədəbiyyat nümunələrimizdə istənilən qədər misal tapmaq olar. Azərbaycan aşıq şeirinin zirvəsi Aşıq Ələsgər poeziyasında gözəllərin tərifinə həsr olunmuş qoşmalarda kəlağayı kəlməsi tez-tez xatırlanır:

*...Başında herat kəlağay,*
*Bənzər göllər sonasına;*

Yaxud:

*...Başında herat kəlağay,*
*Hər paltarı darayıdı;*
*Başərə bənzətmək olmaz,*
*Göydə mələklər tayıdı...*

Kəlağayının bir baş örtüyü kimi bütün qadınlara yaraşdığına daha bir sübut isə Nizami Gəncəvinin «Xosrov və Şirin» poemasındadır. Aşıq Ələsgərdən əsrlər öncə yaşayıb-yaratmış böyük Nizami hökmdar qızı Şirinin gözəlliyini vəsf







edərkən onun xarici görkəminin təsvirini bu cür tamamlayır:

*...Dirilik suyudur, başda kəlağay...*

Azərbaycanda qadının baş örtüyü həmişə namus və ismət rəmzi sayılıb. Kəlağayı nəsildən-nəsilə ötürülərək əmanət edilib. Tarix boyu Şəkidə, İsmayıllıda toxunan kəlağayıların üzərindəki naxışlar da qadınlığın, yanar ocağın simvoludur. Maraqlıdır ki, kəlağayı köhnəlib görünüşünü itirəndə də gərəksiz parça kimi tullanmayıb. Nənələr köhnəlib süzülmüş kəlağayını yuyub səliqə ilə taxçada saxlayıblar: yay fəslində doğulan çağanı bez, çit bələk əvəzinə kəlağayıya büküblər ki, onun ipək qədər incə dərisi bişməcə olmasın.

...Kəlağayı məhz Azərbaycan qadınlarının baş örtüyü olsa da, bütün qadınlara yaraşır. İllərdir ki, dövlət başçısından tutmuş adi turistədək Azərbaycana qonaq gələn qadınlara kəlağayı hədiyyə edilir. Elə özümüz də ən müxtəlif səviyyəli xarici səfərlərə çıxanda əcnəbi rəfiqələrimizə, işgüzar münasibət qurduğumuz qadınlara kəlağayı bəxşişi aparırıq. Bir qayda olaraq bizim kəlağayılar bizim olmayan qadınlara da xüsusi yaraşıq verir. Bəlkə də bu, kəlağayını ən müxtəlif fasonlarda bağlamaq imkanının genişliyindən, ya da təbii ipəkdən olduğu üçün saç düzümünü korlamamasına görə belədir. Səbəb nədirsə, fərq etməz: kəlağayı qadın gözəlliyini tamamlayan xüsusi atributdur.

### ...152 il yol gələn etiraf

Dünya Azərbaycan kəlağayısından nisbətən gec xəbər tutub. 1862-ci ildə ilk dəfə Londonda keçirilən dünya sərgisində kəlağayı nümayiş etdirilib. Həmin sərgidə basqallı Nəsir Əbduləziz oğlunun toxuduğu kəlağayı və qanovuz parça nümunəsi medal və diplomla mükafatlandırılıb. O zamandan bəri dünyanın Azərbaycan kəlağayısına münasibəti məftunluqdan uzağa keçməmişdi. Ta ki...

2014-cü il 24-28 noyabr tarixində YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin 9-cu illik sessiyasında Azərbaycan kəlağayısı «Kəlağayı simvolizmi və ənənəvi sənəti» adı ilə YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edildi.

Kəlağayı faylı Azərbaycan Respublikasının Birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanıb. Mehriban xanım Əliyevanın səyləri və çoxşaxəli fəaliyyəti nəticəsində Azərbaycan ilə YUNESKO arasında səmərəli əməkdaşlıq qurulub. Bu əməkdaşlığın nəticəsi və beynəlxalq qurum ilə ölkəmizin qarşılıqlı yüksək etimadı sayəsində muğam ifaçılığı sənəti, Azərbaycan xalça sənəti, aşıq sənəti, tar ifaçılığı, Novruz bayramı, çövkən atüstü oyun ənənəsi YUNESKO-nun müvafiq siyahılarında yer alıb.



Komitə kəlağayı sənətini belə bir qeyri-maddi mədəni irs saymaqla, onun Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə də təsdiqləyib.



### Söz sözü gətirər, ənənə ənənəni...

Bu ilki müşahidələrimizə görə bayram bazarında ən çox satılan araxçın və kəlağayı oldu. Şəhərin mərkəzində, İçərişəhərdə ailəlikcə gəzintiyə çıxmış adamların arasında başı araxçınlı yeniyetmələri, boynuna kəlağayı dolayan xanımları görmək bir Azərbaycan insanı kimi qəlbi fərəhləndirir, yaxın zamanlarda bu aksesuarların təkcə bayramdan-bayrama yox, adi günlərdə də istifadə olunacağına inam yaradırdı. Son zamanlar qızlarımız kəlağayını çox məharətlə, müasir dəbə uyğun yaradıcı üslubda bağlayır. Görünən odur ki, kəlağayı xalq arasında, dəqiq desək, şəhər xanımları arasında da yenidən dəbə düşür!

> “Dünya Azərbaycan kəlağayısından nisbətən gec xəbər tutub. 1862-ci ildə ilk dəfə Londonda keçirilən dünya sərgisində kəlağayı nümayiş etdirilib. Həmin sərgidə basqallı Nəsir Əbduləziz oğlunun toxuduğu kəlağayı və qanovuz parça nümunəsi medal və diplomla mükafatlandırılıb.



### Təxəyyülün uçuşu

...Sehrli örtük kimi çığırışa-çığırışa kələğayını çərpələng əvəzi uçuran yaşımız çoxdan keçib. Amma hərdən kəlağayıya bürünüb təxəyyülümüzün fəzasında cövlan etmək, pərvazlanmaq, qanad açmaq istəyindən vaz keçə bilmirəm... Bəlkə kəlağayı bizə elə göylərin bəxşişidir? Kəlağayıya qarşı ipək qədər zərif məhəbbətin, elə ipək qədər möhkəm bağlılığın sirri də elə bundadır bəlkə?!

**Gülcahan MİRMƏMMƏD**